Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
23 DEKABR 2021- Cİ İL


# Vüsalsız ötən bir il...



**İgid mayor Vüsal Vəliyevin şəhadət şərbətini içdiyi gündən bir il su kimi axdı getdi. Ruhun su kimi şəffaf, üzündəki nur kimi nurlu, şad və mehriban görünüşün kimi şad olsun igidim.**

Sənin ildönümünü yad eləmək üçün bütün qohum-əqrəban, böyüyüb başa çatdığın Dizə kənd əhli, dostların, Hərbi akademiyadan 2009-cu il buraxılışı məzun yoldaşların, Şərur rayon rəhbərliyi və ictimaiyyəti sənin gül qoxulu məzarının başına yığışmışdılar. Bircə sən orda yox idin, deməyəcəm.

Əminəm ki, sənin o gözə görsənməyən gözəl və nur saçan ruhun hər kəsi izləyirdi. Nişanlının gətirdiyi ağ buketi, əziz ananın sənin adına əkib becərdiyi "Vüsal gülü"nü, qardaşın Elyar İsla-moğlunun Bakıdan gətirdiyi qərənfilləri, Dizə kənd icra nümayəndəliyinin, Ali Hərbi akademiyanı birgə bitirdiyin kursant yoldaşlarının sənin xatirənə hazırlatdıqları çələnglərə baxırdın. Baxdıqca bir az kədərlənsəndə, amma səni sevən, sənin xatirə gününə, əbədi evinə gələn bu izdihamı gördükcə qürurlanırdın. Qürurlanırdın elinnən obannan uğrunda şəhid olduğun vətənin övladlarıynan, qürurlanırdın ki, səni unutmayıblar.

**Heç səni və sənin döyüş yoldaşlarını unutmaq olarmı igidim? Bu vətənin namusunu qoruyan nur üzlü şəhid və qazi balaları unutmaq olarmı, unudarmı bu Oğuz övladları sizi?**

Şəhid mayor Vüsal Vəliyevin xatirəsinə çoxlu yazılar, məqalələr, hekayələr, şeirlər yazılıb. İgid mayorun haqqında demək olar ki, bütün Azərbaycan xalqı məlumatlıdır.

Sadəcə onu xatırlatmaq istəyirəm ki, şəhid balamız Vüsal 2020-ci ilin dekabr ayının 14 də, Naxçıvan MR rəhbərliyi səviyyəsində, böyük izdihamla Naxçıvan hava limanından, "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları




ilə qarşılanaraq, əbədi evi olan Şərur Şəhidlər Xiyabanında dəfn edilib.

**Ruhunuz şad olsun əziz şəhidlərim!**

**Ədib İSAOĞLU**